# RÜBLÜK İCMAL

YANVAR-MAY 2018

"2007-2015-Cİ İLLƏRDƏ AZƏRBAYCAN GƏNCLƏRİNİN XARİCİ ÖLKƏLƏRDƏ TƏHSİLİ ÜZRƏ DÖVLƏT PROQRAMI"

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ



**TƏLƏBƏLƏRİMİZİN TÖHFƏLƏRİ**

**ŞƏBƏKƏLƏŞMƏ GÖRÜŞLƏRİ**

**TƏDBİRLƏR VƏ NAİLİYYƏTLƏR**

# Dövlət Proqramı Məzunlarının Musiqi Töhfəsi

Fevralın 1-də Bakı Musiqi Akademiyasında Dövlət Proqramı çərçivəsində xaricdə musiqi sahəsi üzrə təhsil almış Eldar Babayev, Ceyla Seyidova, Anar Seyidov və Səbinə Vəlibəyovanın təşəbbüsü ilə Dövlət Proqramı məzunları üçün Gənclər Gününə həsr olunmuş **"Dövlət Proqramı Məzunlarının Musiqi Töhfəsi"** adlı konsert proqramı həyata keçirilmişdir.

## ELDAR BABAYEV

*Bəstəkar*
*Lids Universiteti*
*Böyük Britaniya*



## ANAR SEYİDOV

*Skripka*
*Çaykovski adına Moskva*
*Dövlət Konservatoriyası*
*Russiya Federasiyası*



## CEYLA SEYİDOVA

*Skripka*
*Çaykovski adına Moskva*
*Dövlət Konservatoriyası*
*Russiya Federasiyası*



## SƏBİNƏ VƏLİBƏYOVA

*Fortepiano*
*Çaykovski adına Moskva*
*Dövlət Konservatoriyası*
*Russiya Federasiyası*



# Dövlət Proqramı məzunu ''Crescent'' layihəsinin nəbzini tutarkən



## Rəşad Nurəliyev

**Dövlət Proqramı çərçivəsində 2013-2014-cü illərdə İtaliyanın “University Naples Federico II” ali təhsil müəssisəsində “İnşaat mühəndisliyi” ixtisası üzrə magistratura təhsil alan R.Nurəliyev Azərbaycan Memarlıq və İnşaat Universitetindəki bir neçə illik akademik fəaliyyətindən sonra 2018-ci ildən etibarən fəaliyyətini Gilan Holdinqin “Crescent İnkişaf layihəsi” çərçivəsində inşaat mühəndisi kimi davam etdirəcəkdir. Onu təbrik edir və fəaliyyətində uğurlar arzu edirik!**

# Britaniya ictimaiyyəti Xocalı faciəsi ilə bağlı məlumatlandırılıb

*London, 26 Fevral, 2018*

Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar Londonda yürüş-mitinq keçirilib.

Sözügedən yürüşdə B.Britaniyanın müxtəlif universitetlərindən azərbaycanlı və xarici tələbələrlə yanaşı, çoxsaylı insan iştirak edib. Tədbirin iştirakçıları sırasında Dövlət Proqramı təqaüdçülərindən "Queen Mary University of London"məzunu Turan Qafarlı, "City University of London" təhsil alan Sabir Məmmədov da olmuşdur. Əllərində Xocalı hadisələri zamanı erməni faşistlərinin dinc sakinləri amansız işgəncələrlə qətlə yetirmələri, ümumiyyətlə, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti ilə bağlı faktların əks olunduğu posterlər tutan aksiya iştirakçıları faciənin günahkarlarının cəzalandırılması, bu soyqırımına beynəlxalq səviyyədə obyektiv siyasi-hüquqi qiymət verilməsi barədə çağırışlar edib, “Xocalıya ədalət!”, “Biz ədalət tələb edirik”, “Biz sülh istəyirik”, “Qarabağ bizimdir, bizim olacaq” şüarlarını səsləndiriblər. Trafalqar meydanında başlayan yürüş Britaniya parlamenti binasının qarşısında mitinqlə davam edib.









# Bahadur Cabbarlı

*Corvinus Universiteti*
*Budapeşt, Macarıstan*
*"Beynəlxalq biznesin iqtisadiyyatı"*

"Mən 2012-2016-cı illər ərzində Dövlət Proqramı çərçivəsində Macarıstanda təhsil almışam. Sizləri qardaşımla bir yerdə qurduğum yeni brendlə tanış etmək istəyirəm. Almanın uğurlarını hər kəs bilir. Bizdə almanın uğurlarına inanıb alma (daha sonra digər) çipsi istehsal edən bir şirkət qurduq (CRİSPA SNACKS MMC). Heç bir kimyəvi və zərərli tərkibi olmayan, vitaminlərlə dolu bir brend yarandı".





# Dövlət Proqramı tibb məzunu tam təmənnasız əməliyyatlar edərək ölkəmizə öz töhfəsini verir

"Dünən, çalışdığım HB Güvən Xəstəxanasında daha bir aztəminatlı ailənin kişi üzvünə tam təmənnasız, öd daşı xəstəliyinə görə qapalı üsulla öd kisəsinin çıxarılması əməliyyatını (laparoskopik xolesistektomiya) icra etdik və bu gün evinə yola saldıq.. ".

**OP.DR.NİYAZİ EMINOV/ ÜMUMİ CƏRRAHİYYƏ UZMANI**



*Qeyd etmək istərdik ki, Niyazi Eminov, "Ümumi cərrahiyyə" ixtisası üzrə 2013-cü ildə Türkiyənin İstanbul Universitetindən məzun olmuşdur.*





# NASA-da işləmiş həmyerlimiz Bakı Mühəndislik Universitetində

Bakı Mühəndislik Universitetində intellektli nəqliyyat vasitələri üzrə mühəndis, Dövlət Proqramı təqaüdçüsü Teymur Sadıxovla görüş keçirilib. Görüşdə BMU-nun müəllim və tələbələri ilə yanaşı, digər ali təhsil müəssisələrinin də tələbələri iştirak edib. O, süni intellekt və özünü idarə edən maşınlar barədə seminar verib. Seminarda Teymur Sadıxov təhsil və iş həyatı barədə məlumat verərək bildirib ki, “Bakıda A.Abdullayev adına 211 saylı orta məktəbi bitirmişəm. Bakalavr dərəcəsini 2008-ci ildə İstanbul Texniki Universitetində Aviasiya mühəndisliyi üzrə almışam”. Teymur Sadıxov onu da qeyd edib ki, universitetin tarixində 4.0 ortalama balla universiteti bitirən yeganə tələbə olub. O, həmçinin bakalavr təhsili müddətində bir sıra mükafatlara layiq görülüb. Daha sonra Teymur Sadıxov Kaliforniya Universitetində təqaüdlə Mexanika mühəndisliyi üzrə magistr dərəcəsini alıb. 2015-ci ildə Corciya Texnologiya İnstitutunda (Georgia Institute of Technology) riyaziyyat üzrə magistr və aviakosmik mühəndisliyi üzrə Ph.D. dərəcələrinə yiyələnmiş, Ph.D. işi ABŞ Hava Qüvvələrinin Elmi-Tədqiqat İdarəsi və NASA Drayden Aviasiya Elmi-Tədqiqat Mərkəzi tərəfindən dəstəklənmişdir. 2014-2015-ci illərdə NASA Reaktiv Laboratoriyasında (NASA's Jet Propulsion Laboratory) Robot Sistemlərinin Qiymətləndirilməsi və İdarəedilməsi üzrə qrupda tədqiqatçı olaraq avtomatik yer nəqliyyat vasitələrinin lokallaşdırılması və çox istiqamətli hərəkət trayektoriyasının proqramlaşdırılması üzərində çalışmışdır.



# YENİ TƏYİNATLAR

## Vüsal Hüseynov



**Dövlət Proqramı çərçivəsində ABŞ-ın Harvard Universitetindən məzun olmuş Vüsal Hüseynov 23 aprel, 2018-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin rəisi təyin olunmuşdur.**

## Sarvan Cəfərov



**Dövlət Proqramı çərçivəsində 2015-2017-ci illərdə Avstriyanın Beynəlxalq Antikorrupsiya Akademiyasında (IACA) magistratura təhsili almış Sarvan Cəfərov kənd təsərrüfatı nazirinin köməkçisi vəzifəsinə təyin olunub.**

**Qeyd edək ki, S.Cəfərov 1985-ci ilin oktyabrın 28-də anadan olub. 1992-2003-cü illərdə Bakı şəhəri, Nərimanov rayonunda yerləşən 178 saylı orta məktəbdə təhsil alıb. 2003-2007-ci illərdə Bakı Dövlət Universitetində Politologiya ixtisası üzrə bakalavr, 2008-2010-cu illərdə Milli təhlükəsizlik və siyasi strategiya ixtisası üzrə magistr təhsili alıb. 2009-2012-ci illərdə Əmlak Məsələləri Dövlət Komitəsinin Bakı şəhəri üzrə 3 saylı ərazi şöbəsində məsləhətçi vəzifəsində çalışıb. 2012-ci ilin noyabr 1-dən bugünədək Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədrinin köməkçisi vəzifəsində işləyib. Rus və ingilis dillərini bilir.**

# DÖVLƏT PROQRAMI MƏZUNU AXC-NİN 100 İLLİYİ İLƏ BAĞLI LONDONDA TƏDBİR KEÇİRİB

**Dövlət Proqramı çərçivəsində "Queen Mary University of London" Universitetindən bakalavr təhsili üzrə məzun olmuş və London Kollec Universitetində "Tarix" ixtisası üzrə magistratura təhsili alan Turan Qafarlı Londonda Yunus Emre İnstitutunda "Cümhuriyyətin 100-cü ildönümündə Bakı müharibəsi" adlı tədbir keçirilib. O, 1918-ci ildə Bakıda baş verən hadisələr haqqında çıxış edərək Bakı müharibəsinin 100 illiyinin yaxınlaşdığı ərəfədə bir azərbaycanlının İngiltərədəki arxiv materialları ilə bu mövzuda çıxış etməsinin vacibliyini vurğulamış və çıxış zamanı Britaniya Kitabxanasında tapdığı, Atatürk Türkiyəsinin Azərbaycan Xalq Cümhuriyyəti ilə əlaqələrindən bəhs edən sənədi də nümayiş etdirmişdir.**



# SOCAR AQŞ MMC-nin dəstəyi ilə Massaçusets Texnologiya İnstitutu Azərbaycanda startap və gənc sahibkarlığın inkişafı Fondunu təsis etdi

**SOCAR AQŞ dünyanın aparıcı universitetlərindən biri olan Massaçusets Texnologiya İnstitutu (MİT) ilə birgə MİT-Azərbaycan Fondunun yaradılmasına dair razılaşma imzalayıb. Layihənin əsas məqsədi mobil/veb tətbiqinə əsaslanan startap və özəl sahibkarlığın inkişafına töhfə vermək, tələbələr üçün sahibkarlıq və kompüter proqramlaşdırma sahələri üzrə intensiv kurslar təşkil etməkdir.**

**İlk MİT-Azərbaycan Qlobal Startap Laboratoriyası 2018-ci ilin yayında ADA Universitetində təşkil olunacaq. Proqramın ADA Universitetində təşkil edilməsi ilə bağlı qərar MİT nümayəndəsinin 2017-ci ildə Bakıya səfəri zamanı ali təhsil müəssisələri arasında apardığı qiymətləndirmə missiyası əsasında müəyyənləşdirilib. İştirakçıların seçim prosesi MİT-nin müsabiqə komissiyası tərəfindən həyata keçiriləcək. Müsabiqədən uğurla keçən gənclərə startap biznesinin təsis edilməsi ilə bağlı dəstək veriləcək. Gənc ideya müəllifləri investorlar, Startap və İnkişaf Mərkəzlərinin nümayəndələri və ölkəmizin startap ekosisteminin aparıcı qurumları ilə görüşəcək. Sözügedən əməkdaşlığın qurulmasında əsas təşəbbüskar Dövlət Proqramı çərçivəsində Massaçusets Texnologiya İnstitutundan fərqlənmə ilə məzun olmuş gənc sahibkar Ramil Məhərrəmovun rolunu xüsusilə qeyd etmək istərdik.**



Left to right: David Gamarnik (MIT-Russia/Eurasia Co-Director), Ramil Maharramov (MIT Sloan MBA 2016 from Azerbaijan), Elizabeth Wood (MIT-Russia/Eurasia Faculty Co-Director), Ekaterina Zabrovskaya (MIT-Russia/Eurasia Program Manager), and Ramin Isayev (General Director of Socar AQS).




**GÜNAY KAZIMZADƏ** “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində magistratura təhsilini "Kompüter elmləri" ixtisası üzrə Bonn Universitetində bitirmişdir. Günay xanım öz ABŞ səfəri haqqında bizimlə bölüşdü. O Beynəlxalq Qonaq Liderlik Proqramının 3 həftəlik iştirakçısı olmuşdur. “IVLP” ABŞ Dövlət Departamentinin qabaqcıl peşə mübadiləsi proqramıdır. Birləşmiş Ştatlara qısa müddətli səfərlər sayəsində, müxtəlif sahələrdə mövcud və yaranan xarici liderlər Amerika tərəfdaşları ilə davamlı əlaqələri inkişaf edir. Professional görüşlər iştirakçıların peşəkar maraqlarını əks etdirir və ABŞ-ın xarici siyasət məqsədlərini dəstəkləyir. Günay xanımın qeyd etdiyinə görə, 3 həftə ərzində Washingthon DC, Mayami, Montana, Texas və Missuri kimi 5 əyalətə təcrübə səfərləri həyata keçirmişlər, 10-ca şəhərləri ziyarət etmiş, hökumət institutları, dövlət və özəl təşkilatları ilə 200-dən çox yeni əlaqələr qurmuş, ABŞ-da inkübasyon inteqrasiya mərkəzləri və universitetlər haqqında 50-dən çox təlim və görüşlər keçirmişlər.



Böyük Britaniyanın Birmingem Universitetinin "Kimya Mühəndisliyi" ixtisası üzrə məzunu, **Günel Ağabəyli** öz nailiyyətini bizlə bölüşdü:
*"CLimatelaunchpad 2017"də Kiprdə yarımfinalda 15 ən yaxşı ideyadan biri seçildiyimiz üçün bizim komanda CLimate KIC proqramının "Alumni" siyahısına daxil olmuşdur. Buna görə Fevral ayında məni "GreenHouse" adlı daha bir yarışmanın müsahibəsinə dəvət olundum. Müsahibədə iştirak edən 30+ komandadan cəmi 14 startup seçildi. Bu 14 startup-dan 5-i məhz GreenHouse proqramına seçildi. Mənim və komandamın layihəsi də 2500 funt-sterlinq qazanan və "Edinburgh Carbon Innovation Centre"də 6 aylıq  proqrama qoşulan 5 komandadan biri oldu. Bu 6 ay müddətində 14 komanda ilə birgə müxtəlif mentorlar işləyib, ideyaları daha da mükəmməlləşdirib bazara çıxarmağa kömək edəcəklər".*



# Dövlət Proqramı məzununun "start-up"ı

**Dövlət Proqramı çərçivəsində Kanadada "Kompüter elmləri" ixtisası üzrə təhsil almış Naib Bağırov yeni mobil tətbiq hazırlamışdır. Tətbiq insanların gündəlik gəlir və xərclərin idarəolunması üçün, xüsusilə pula qənaət məqsədilə istifadəsi üçün nəzərdə tutulmuşdur.**

Naib Bağırov-"...Bizim **mobil tətbiq** bu gün Google Play Store-a nəşr olundu. Maliyyə qənaətini artırmaqda maraqlı olan hər kəs tətbiqin aşağıdakı linkdən endirilməsinə və onu istifadə etməyə hazırdır. Rəylər qəbul edilir (*istifadə etməyə qərar verən hər kəs onu istifadə etmək üçün qeydiyyatdan keçmək üçün kodu əlaqələndirə bilər*)".











# Şəbəkələşmə görüşləri

Şəbəkələşmə görüşlərinin əsas məqsədi "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində xaricdə təhsil almış Dövlət Proqramı məzunları ilə daha mütəşəkkil və operativ əlaqələndirmənin təmin olunmasıdır. Eyni zamanda, onların əmək bazarına inteqrasiya olunması prosesinə dəstək göstərməkdir.



# Şəbəkələşmə görüşləri

*“2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”*







BUENOS AIRES 2018

YOUTH OLYMPIC GAMES

YOG DNA

# *Dövlət Proqramı məzunu gənc səfir təyin olundu*




**Dövlət Proqramı çərçivəsində Mançester Universitetində təhsil almış Səkinə Vəliyeva Beynəlxalq Olimpiya Komitəsinin seçiminə əsasən Milli Olimpiya Komitəsini Buenos Aires 2018 Yeniyetmələrin Yay Olimpiya Oyunlarında gənc səfir kimi təmsil edəcək. Məzunumuzu təbrik edir və ona uğurlar arzu edirik!**




# "NAİLİYYƏTLƏRİMİN ƏLDƏ OLUNMASINDA TƏHSİL NAZİRLİYİNİN ROLU ƏVƏZSİZDİR."

Dövlət Proqramı çərçivəsində B.Britaniyanın Mançester Universitetində "Neft-qaz yataqlarının işlənməsi və istismarı" ixtisası üzrə magistratura və doktorantura təhsili almış Rəşad Gülməmmədovun ilk elmi məqaləsi Polşada keçirilən "Beynəlxalq Geoelmlər Tələbə" ***konfransında*** 1-ci yerə layiq görülmüşdür. Elmi işlə əlaqədar topladığı ilkin nəticələri eyni zamanda universitetdən yeganə tələbə olaraq İngiltərənin ən böyük neft-qaz konfransı olan PETEX-də çıxışla təqdim etmişdir.

O, təhsilinin son 1 ilini BP şirkətinin Misirdəki nümayəndəliyinin təmin etdiyi məlumatlardan istifadə edərək daha 2 elmi məqalə ərsəyə gətirmiş və bu il ərzində nəşr etdirməyə hazırlaşır. Bu nəticələr bu ilin oktyabr ayında Londonda geoloqlar cəmiyyətinin 100 illiyinə həsr olunmuş konfransda həm BP Azərbaycan, həm BP İngiltərə, həm də Misirin neft sənayesinin işçiləri tərəfindən maraqla qarşılandı. BP Azərbaycan iş imkanlarını müzakirə etmək üçün Bakıya qayıtdıqdan sonra onlarla görüşə dəvət edilmişdir. Əlavə olaraq SOCAR-dan Geomexanika üzrə aparıcı mühəndis vəzifəsinə təklif almışdır.

# RÜBLÜK İCMAL

“2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”

*Hörmətli Dövlət Proqramı məzunları öz uğurlarınızı, nailiyyətlərinizi görmək istəyirsinizsə, müvafiq məlumatları bizimlə paylaşmağınızı tövsiyə edirik.*




***Gülminə Məlikzadə***
*gulmina.melikzade@edu.gov.az*





***Gülay Məmmədova***
*gulay.mammadova@edu.gov.az*


**Dövlət Proqramı Məzunlar Şəbəkəsi/ State Program Alumni Network**

**Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alan Azərbaycanlı gənclər qrupu**

**Dövlət Proqramı Məzunlar Şəbəkəsi/ State Program Alumni Network**

